Müstəqil ictimai-siyasi, publisistik qəzet № 33-34 (1163-1164) 29 sentyabr 2023-cü il Kredo
Qəzet 1999-cu ilin oktyabrından çıxır

# Dünyamızın Qənirəsi... Həqiqətlərin Qənirəsi... Ümidlərin Qənirəsi... Tanrı əbədiyyət yoluna işıq olsun.

*İnamsız adamlar - belələrinə nihilist deyirlər, iddia edirlər ki, dünyaya mənsub olmaq çətindir. Qənirə bunu bacardı... çünki dünyanın fövqünə özünün qərəzsizliyi və səmimiyyəti ilə yetdi. Şəkkakların fikrincə, bizim dövrümüzdə həqiqətləri dilə gətirmək olmur. Qənirə xanım mənəvi gücünü istinad edərək doğrunu ifadə edən qüruru ilə həqiqətin rəmzinə çevrildi. Təmizliyin və təmənnasızlığın Qənirəsi. Bu duyuruda da o, demək olar ki, mənəvi məktəb yaratdı.*

*...Və nəhayət, Qənirə xanım yaradıcı ziyalıların və ziyalılığın anası idi. Qənirə xanıma sonsuz sevginin kökü özünün təbiətindən, mənəvi mühitindən gəlirdi. ...O, həm də xalqın qızı idi. Xalqına sevgisini zərrə-zərrə Vətən səmasına səpib...*



## YERİN ULDUZU GETDİ

***Millət vəkili Qənirə Paşayevanın vaxtsız ölümünə elegiya***

Bir acı xəbər gəldi, əldə qələm titrədi,
Misralar qara geydi, yazmadım yazı getdi.
Əhdində, inamında Təbriz, Borçalı vardı,
Yurdun Dərbəndi getdi, bir Qarayazı getdi.

Ümidlər göyərirdi payızından, yazından,
Haqqa nizam gəlirdi doğru-düz tarazından,
Bülbüllər səs almışdı onun xoş avazından,
Millətin şirin dili, söhbəti, sözü getdi.

Simsarlıqda hər kəsə könül evi, him idi,
Bir dərdlinin qəlbində ürək teli sim idi;
Arxasıza dayaqdı, kimsəsizə kim idi,
İnsana məhəbbətin, sevginin nazı getdi.

İçində böyümüşdü haqq uğrunda savaşın,
Qəlbi döyüş meydanı, səngəri vətəndaşın;
Təskinliyi olarmı gözlərdən axan yaşın,
Elin doğma balası, qeyrətli qızı getdi.

Savalandan Diriyə karvan gəlsə, nə deyim,
Aveydən, Göyəzəndən mehman gəlsə nə deyim;
Xudafərin üstündə kədər geyim, qəm yeyim
Könlümüzün evində dillənən sazı getdi.

Bir Qənirə adının qənirsizlik taleyi,
Onu vaxtsız ələdi - bu dövranın küləyi;
Necə yazım qınayım əli qanlı fələyi,
Apardı arzuları... yanan murazı getdi.

Xələflinin qələmi ağladı öz vaxtına,
Ayrılığın acısı göynədi söz baxtına
Dünyaya can borcuyla vida dedi taxtına
Axdı göyün üzündən yerin ulduzu getdi.

*Əli Rza XƏLƏFLİ*
*29.09.2023*